# ◆ Nisə Bəyimin 60 yaşı



*Nisə Bəyimin ilk şeirləri "Azərbaycan" jurnalında hələ 30 il əvvəl dərc olunub. O zaman redaksiya əməkdaşlarından kimsə onu tanımırdı. Sabirabaddan göndərdiyi şeirləri oxundu və bəyənildi. O vaxtdan Nisə Bəyim jurnalımızın ən fəal müəlliflərindəndir; o müəlliflərindəndir ki, əyalətdə yazıb-yaratsalar da əsərləri ilə ədəbiyyatda paytaxt-əyalət anlayışını silib bir kənara ata bilirlər. Onun şeirləri mövzu və düşüncə tərzinin müasirliyi, səmimiyyəti ilə diqqəti cəlb edir. Nisə Bəyim həyatını başdan-başa bədii yaradıcılığa həsr etmiş bir şairdir. Son illər nəsr də yazır. Artıq uğurları da var. Bu gün ən çox vaxt darlığından, ömrün qısalığından gileylidir:*

*"Ömür o qədər qısa ki, üstündə yerimək olmur*
*İki gözün sığmadığı bir nəfsi doyurmaq olmur ..." - deyir.*

*Əziz bacımız, "nəfsin doyanacan" yaşa, yarat.*
*Sənə cansağlığı və uzun ömür arzulayırıq!*

*"Azərbaycan" jurnalının redaksiyası*

## *Nisə BƏYİM*

## ALTI ON - ON ALTI

* * *

Üzü -gözü ayrılığa bulaşmış
Xatirələr qaranlıqda gizlənir...
Tərk edilmiş ömrün tör-töküntüsü
Yığılmaqçun künc -bucaqdan izlənir...

Bu darıxmaq nədir,
durub başımda
heç olmayan gümanlar da darıxır...



bir-birindən xəbərsiz qeyb olanlar,
yaxın-uzaq zamanlar da darıxır...

İçi boşdur yaşanmayan bir ömrün,
İstər, yuxu, istərsən də, nağıl de,
Xəyal kimi uçub gedən illərə,
İstər, ağla, istərsən də, ağı de...

***

Könlündən yas keçirdi,
yas tutdum, sənə ağladım...
ayırıb göz yaşlarından
bir az da sənə saxladım...
İndi bax dənizdən, göydən,
biz bilməyən sirrə ağla...
səni yola salan qəmə,
qarşılayan şeirə ağla...
Gözün arxada qalmasın,
burda vaxt öz yolundadı,
ölümü yaşadan saat
indi sənin qolundadı...

***

Ömür o qədər qısa ki,
üstündə yerimək olmur,
iki gözün sığmadığı
bir nəfsi doyurmaq olmur...

Nəfəsin yarısı qədər,
verdiklərin geri gəlmir,
bir canın qurusu qədər,
ayrı olan can çəkilmir...
O qədər qısa ki
həyat,
bir ömrün yuxusu bitmir...
bir şeiri sona qədər
oxumağa zaman yetmir...

*30 yanvar 2015*

***

Nə qədər yanılmısan,
tanımamısan tənhalığı...
ömründə görmədiyin,
eşitdiyin tənhalığı...

Hər kəsdən böyük imiş,
gözündə kiçiltmisən...
sənin əcəlin ikən,
onu yazıq bilmisən...